BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2006

# SOSİAL-EKOLOJİ MÜNASİBƏTLƏRİN STRUKTURU VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**A.N.MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti*

*Məqalədə sosial-ekoloji münasibətlər, onların təbiəti, strukturu və səciyyəvi xüsusiyyətləri nəzərdən keçirilir. Müəyyən edilmişdir ki, sosial münasibətlərin ekolojiləşməsi mürəkkəb, ziddiyyətli prosesdir, əgər ölkənin ekoloji xartiyası pozularsa, sosial qrupların münasibətlərində ekoloji gərginliklə müşayiət olunur ki, bu da dövlətin və onun vətəndaşlarının ümdə mənafelərinə toxunur.*

Sosial-ekoloji münasibətlərin mahiyyətini müəyyən edərkən «sosial münasibətlər» anlayışını nəzərdən keçirmək zərurəti meydana çıxır.

Qeyd etmək lazımdır ki, sosial münasibətlər məfhumuna indiyə qədər birmənalı yanaşılmamış, ayrı-ayrı dövrlərdə müxtəlif cür şərh olunmuşdur. Y.K.Pletnikov sosial münasibətləri həm maddi, həm də ideoloji münasibətlərlə bağlı olan mürəkkəb sintetik ictimai münasibətlər şəklində nəzərdən keçirməyi təklif etmişdir (9, s.16). Digər müəllif – M.V.Lapina təsdiq edir ki, ictimai orqanizmin mövcudluğunda və inkişafında sosial münasibətlər sferası spesifik bütövlüyə və quruluşa malikdir (8).

Sosioloji nöqteyi-nəzərdən sosial münasibətlər cəmiyyətdə müxtəlif mövqeyə malik olan, onun iqtisadi, siyasi, mənəvi, o cümlədən ekoloji həyatında bu və ya digər dərəcədə iştirak edən insan qrupları arasındakı münasibətlərdir. Burada «sosial» termini subyektlərin qarşılıqlı təsirə malik kollektiv davranışı, iqtisadi, siyasi, ideoloji, ekoloji dəyişikliklə nəticələnə bilən cəmiyyət həyatının hər hansı bir sahəsində onların qarşılıqlı münasibətləri kimi başa düşülür. Bu baxımdan sosial münasibətlər insanların bütün münasibətlər sisteminin müəyyən aspektini təşkil etməklə ictimai həyatın hər hansı bir sahəsində formalaşır. Ona görə də sosial münasibətlərin tərkibinə subyektlərin sosial-iqtisadi, sosial-siyasi, sosial-təşkilati, sosial-hüquqi və s. münasibətlərini daxil etmək qanunauyğundur.

Əgər sosial subyektlərin münasibətləri cəmiyyətin ekoloji həyatına aiddirsə, onlar sosial-ekoloji münasibətlər adlandırılmalıdır. Beləliklə, bu və ya digər növ insan münasibətlərinin sosiallığının çox mühüm əlaməti məhz cəmiyyət və təbiətin müəyyən obyektinə münasibətdə insanların sosial-qrup qarşılıqlı təsirinin mövcud olmasıdır.

Amerika sosioloqları subyekt və təbii mühit arasındakı qarşılıqlı münasibətlərin mexanizmini öyrənmişlər. Məsələn, D.Dankan belə hesab edir ki, «sosial institutlar yeni ekoloji təkamülün yaxud texniki inkişafın nəticəsi kimi meydana çıxırlar». İnsanın adaptasiya fəaliyyətinin ətraf təbii aləmə fövqəladə dağıdıcı təsirinə qarşı cavab

reaksiyası olaraq sosial subyektlə təbiət arasındakı münasibətlərdə təbii balansın pozulması təhlükəsinin nəticəsi olaraq sosial münasibətlər ekolojiləşir.

Digər amerika sosioloqu L.F.Şnor belə hesab edir ki, insan ekologiyası təbiətin qorunmasında sosial fəaliyyətin nəzəri əsasına çevrilmişdir. İnsan ekologiyası fiziki əhatə və onun sosial struktura təsiri haqqında özünə tam hesabat verir.

Beləliklə, sosial münasibətlərin strukturu ekoloji faktorların müəyyən təsirinə məruz qalır və tədricən onların ekolojiləşməsi baş verir. Bu sosial münasibətlər ətraf təbii aləmə uyğun olaraq fəaliyyətdədirlər.

İndi isə sosioekosistem anlayışına aydınlıq gətirək. Hər bir sosioekosistem özündə ən azı üç əlaməti xarakterizə edir: qapalılıq, digər sosioekosistemlərlə qarşılıqlı əlaqə və biomәhsuldarlıq.

Yuxarıdakı əlamətlər sosial tənzimləmə və nəzarət obyekti kimi bu cür başa düşməyə imkan verir: bu, sosial subyektlərin təbii yaşayış mühiti olub, tərkib elementləri davamlı sosioekoloji sistemlərlə qarşılıqlı əlaqədə olan qapalı sistemə və müəyyən biomәhsuldarlığa malikdir.

İstehsalat sahəsində iqtisadi qanunlar fəaliyyət göstərir ki, bunlar da maraqda öz əksini tapır. İctimai maraq diferensiallaşmışdır və tənzimləmə, o cümlədən nəzarət sferasında ekoloji sistemlər deyil, bu sistemlərin ayrı-ayrı elementləri götürülmüşdür: təbiət obyektləri, təbii komplekslər və təbii xüsusiyyətlər. Bununla yanaşı, sosial tənzimləmə sferasında göstərilən obyektlərdən onların xüsusiyyətləri və təbii proseslərdən yalnız resurs elementləri mövcuddur. Ölkəmizin sosioekosistemi sosial və ekoloji sistemlərin birliyini əks etdirir (2, s. 18).

| | | | | |
|---|---|---|---|---|
| sosioekosistem | → | subyektiv faktor | →<br>← | sosial-ekoloji fəaliyyət |

**Şəkil 1.** Sosioekosistemlərin subyektiv faktorla funksional qarşılıqlı təsiri

Yuxarıdakı sxemdən də görünür ki, sosioekosistem bir-birilə qarşılıqlı əlaqədə olan iki sistemin – sosial və ekoloji sistemlərin birliyi kimi təsəvvür olunduğu üçün onların qarşılıqlı münasibəti də subyektiv faktordan funksional asılılıqda olan proses kimi çıxış edir. Subyektiv faktor isə subyektlərin bu prosesə sosial-ekoloji təsirini ifadə edir.

Sosial-ekoloji münasibətlərin subyektiv faktoru dedikdə, ətraf təbii mühitin dəyişdirilməsinə, inkişafına yaxud saxlanılmasına istiqamətlənmiş subyektlərin – kütlələrin, siniflərin, sosial qrupların, ayrı-ayrı insanların ekoloji fəaliyyəti nəzərdə tutulur. Subyektiv faktorun məzmununa nəinki intellektual, həmçinin emosional, psixoloji komponentlər də daxildir. Bunlar isə ayrı-ayrı fərdlərin təkrar olunmasını, özünəməxsus davranışını şərtləndirir. Bu səbəbdən subyektlərin sosial-ekoloji fəaliyyəti heç də həmişə şüurlu, məqsədyönlü xarakter daşımır və bəzi hallarda ətraf təbii mühitə böyük ziyan vurmaqla nəticələnir. Subyektlərin bu hərəkətləri ekoloji hüququn pozulması kimi qiymətləndirilir və bu, qanuna ziddir. Həm sosial-ekoloji münasibətlər, həm də sosial-ekoloji fəaliyyət subyekt və obyekt baxımından sosial və təbii fenomenlərə malikdirlər və kompleks mahiyyət daşıyırlar. Lakin nəzərə almaq lazımdır ki, sosial-ekoloji münasibətlər təkcə sosial-ekoloji fəaliyyətdən törəmirlər, onlar həm də

istehsalat fəaliyyətinin nəticəsi kimi əmələ gəlirlər.

Sosial-ekoloji fəaliyyətin yaranması səbəblərindən biri də başlıca olaraq ekoloji tələbatların təmin olunmasıdır. Sosial-ekoloji münasibətlər ekoloji tələbatlarla bağlı olan sosial-ekoloji fəaliyyət prosesində aktuallaşır. Bu tələbatların xarakteri məzmununa görə sosial-ekoloji münasibətlərin keyfiyyətini müəyyənləşdirir. Odur ki, ekoloji tələbatlar nəinki insanları birləşdirə bilər, həm də onlar arasındakı əlaqəni kəsərək ayıra bilər (1, s. 50).

Tələbat ən mühüm kateqoriya olub, subyektin onu əhatə edən təbiət aləminə münasibətini ifadə edir. Şüurda əks olunmaqla tələbatın təsiri altında insanın təbiətə real münasibəti subyektin ətraf təbii mühitin bu və ya digər obyektinə müəyyən məqsədində təzahür edir.

Subyektlərin ekoloji fəaliyyətinin sövqedici səbəbi rolunda çıxış etmək üçün obyektiv tələbat şüurdan keçməlidir, yəni subyektiv tələbata çevrilməlidir. Beləliklə, subyektlərin sosial-ekoloji münasibətlərinin tələbatları iki cür ola bilər: obyektiv və subyektiv.

Qeyd etmək lazımdır ki, ekoloji tələbatların inkişafı müəyyən çərçivəyə malikdir ki, bu da təbiət sistemlərinin təbii qanunları ilə müəyyən edilir. Bunun nəzərə alınmaması təbiətin potensialı haqqında özünəməxsus yalançı təsəvvürlərin meydana gəlməsinə səbəb olur ki, bunun da müqabilində insan təbiətdən mümkün olmayanları tələb edir və real ziddiyyətlər yaratmaqla onu öz istəyinə uyğun şəklə salmağa çalışır.

Obyektiv ekoloji tələbatlar ümumiləşdirilmiş şəkildə müvafiq maraqlara transformasiya olunur. Ekoloji maraqlar sistemi cəmiyyətin inkişafının real tələbatlarını əks etdirərək bir neçə səviyyəyə malikdir: fərdi, kollektiv, ümumxalq. Təbiətin dövlət sərhədləri olmadığı üçün o qarşılıqlı əlaqələrdən ibarət sistemdir və onun elementlərindən birinin pozulması digərlərinin də pisləşməsinə (yəni hər hansı ölkənin təbiətinə dəyən ziyanın digər ölkələrin də təbii vəziyyətində əks olunması labüd-dür) səbəb olur (9, s. 275). Ekoloji maraqların daha bir spesifik səviyyəsi mövcuddur: beynəlxalq səviyyə. Hər bir insan obyektiv olaraq Yer kürəsinin istənilən nöqtəsində təbii mühitin əlverişli şəraitdə olmasında maraqlıdır. Bu maraqlar isə insanlarda qlobal təfəkkürün yaranmasından ötrü çox vacibdir və hal-hazırda bütün bəşəriyyət üçün son dərəcə əhəmiyyətlidir.

N.F.Reymers ekoloji mədəniyyətlə insan tələbatları arasındakı münasibətləri uyğunlaşdırma münasibətləri kimi başa düşür (10, s. 91). Digər müəlliflərlə birgə ekoloji tələbatları sosial-iqtisadi ekologiyanı müəyyən edən tələbatlar kimi başa düşən N.F.Reymers onlara aşağıdakıları aid edir:

1) fizioloji və psixoloji olmaqla bioloji tələbatlar;
2) yaşayış mühitinə realizasiyalarla bağlı olan tələbatlar;
3) ekoloji tələbatlar kompleksi;
4) insanın əməyə olan tələbatları;
5) etnik tələbatlar;
6) xüsusi statusa və rahatlığa (komforta) olan tələbatlar;
7) müəyyən iqtisadi statusa olan tələbatlar.

Real həyatda ekoloji tələbatlar digər tələbatlarla, ilk növbədə iqtisadi tələbatlarla qarşılıqlı təsirdə olurlar. Bu qarşılıqlı təsir ziddiyyətli və mürəkkəbdir. Hal-hazırda iqtisadi tələbatlar ekoloji

tələbatlarla müqayisədə daha dərk olunandır, çünki onların həyata keçməsinin nəticələri daha çox hiss olunur. Odur ki, praktikada iqtisadi tələbatlar çox vaxt ekoloji tələbatlara nisbətən üstünlük təşkil edir ki, bu da cəmiyyətlə təbiət arasındakı ziddiyyətləri kəskinləşdirir və bu ziddiyyətlərin aradan qaldırılması üçün daha çox vəsait sərf olunur.

Müasir ekoloji problemlərin qlobal xüsusiyyətinin dərk olunması, onun meydana çıxma səbəblərinin tədqiq olunması, cəmiyyətlə təbiət arasındakı qarşılıqlı münasibətlərin harmonikləşdirilməsi yollarının müəyyən edilməsi insanların təbiət aləmindəki yerinə və roluna, təbiətin insan həyatındakı əhəmiyyətinə aid mənəviyyatla, dünyagörüşü ilə bağlı məsələlərin yeni həllini tələb edir.

Bu, ictimai münasibətlərin humanistləşdirilməsinin sonrakı prosesi ilə əlaqədardır. Təbiətə humanist münasibətə əsaslanan insan fəaliyyətinin yeni dəyərlər və motivlər sisteminin təsdiq olunması – məqsədi aktiv həyat mövqeyi olan tərbiyədir ki, buraya ətraf mühitin mühafizə edilməsinin hər kəsin vətəndaşlıq borcu olması kimi nəzərdən keçirilməsi daxildir.

Ekoloji siyasət – sosial-iqtisadi siyasətin bir növü olub, cəmiyyətlə təbiət arasındakı qarşılıqlı asılılığın müəyyən tipinin seçilməsinə və reallaşdırılmasına yönəldilmişdir ki, bu da müvafiq istehsalat tipinə, cəmiyyətin sosial-iqtisadi həyat formalarına və şəxsiyyət faktoruna əsaslanır.

Ekoloji siyasət özündə həm də strateji məqsəd daşıyır: cəmiyyət və təbiət arasındakı qarşılıqlı münasibətlərin harmonikləşdirilməsinin, insanların yaşayış və əmək şəraitinin əlverişli təbii şərtlərinin, həmçinin təbiətdən istifadənin bu və ya digər istiqamətlərinin və formalarının təkmilləşdirilməsinin təmin edilməsi.

Ekoloji siyasətin işlənib hazırlanmasının əsasında müəyyən prinsiplər məcmusu olmalıdır. Bunlara aiddir: cəmiyyətin inkişafının konkret daxili və xarici şərtlərinin və onun real imkanlarının nəzərə alınması; insan və təbiətin qarşılıqlı təsiri prosesində ictimai istehsalın mühüm əhəmiyyət kəsb etməsi; cəmiyyətin ekoloji və digər sahələrinin vəhdəti; ekoloji məsələlərin həllinin rasional təsərrüfatçılıq imkanlarının təmin olunması ilə, istehsalın fasiləsiz inkişafının vacibliyi ilə, cəmiyyətin maddi və mənəvi tələbatlarının təmin olunması ilə səmərəli şəkildə uzlaşdırılması; daxili ekoloji tədbirlərin qlobal proseslərə və xarici ekoloji faktorun daxili iqtisadi həyata təsirinin nəzərə alınması.

Ekoloji siyasət də digər siyasətlər kimi konkretdir. O, obyektin (sosioekosistemin) dərkedilmə dərəcəsi ilə, dövlətin mövcudluğunun daxili və xarici şərtləri ilə, bu siyasəti həyata keçirən cəmiyyətin malik olduğu maddi imkanlarla müəyyən olunur.

Cəmiyyət üçün, başqa insanlar üçün əhəmiyyətli olması baxımından insanın təbiətdə davranışı mənəvi cəhətdən dəyərli, yaxud əxlaq qaydalarına ziddir. İnsanla təbiətin qarşılıqlı təsirinin bu tərəfi heç də həmişə və dərhal özünü biruzə vermir. Bu, ekoloji fəaliyyətin xarakterindən asılıdır. Ekoloji fəaliyyətin nəticələri təkcə təbiətdə deyil, insanın özündə də əks olunur. Təbiətə qarşı yönəldilmiş bu və ya digər hərəkətlərə onların insanlara, cəmiyyətə təsiri nöqteyi-nəzərindən yanaşılarkən, əgər onda ictimai və şəxsi maraqlar qarşılıqlı təsirdədirsə, bu hərəkətlər mənəvi qiymətləndirilməyə və dərketməyə məruz qalırlar.

İnsanın təbiətə münasibəti ictimai maraq kəsb etdiyi üçün o , mənəvi tənzimetmə vasitəsinə çevrilir.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da mövcud ekoloji böhranla əlaqədar olaraq sosial münasibətlərin ekolojiləşməsində tələbatların rolu xüsusi xarakter almışdır.İctimai ziddiyyətləri kəskinləşdirən ekoloji böhran bir sıra əlamətlərlə səciyyələnir:

1. Cəmiyyət və təbiətin qarşılıqlı təsirinin pozulma səviyyəsi respublikamızın ekoloji sistemləri üçün təhlükəli həddə gəlib çatmışdır.

Keçən əsrin 90-cı illərinin əvvəllərindən etibarən içməli suyun üçdə iki hissəsinin tərkibi normativlərə cavab vermirdi. Belə ki, yeraltı suların təhlükəli surətdə çirklənməsi prosesi başlamışdır, əksər şəhərlərdə havada zərərli maddələrin nəzərdə tutulmuş konsentrasiyası (qatılığı) normanı10 dəfədən də çox keçmişdir (2).

2. Belə təhlükəli hüdud insanların həyat və sağlamlığı üçün də böyük təhlükə yaradır. Ətraf mühitin çirklənməsi nəticəsində 90-cı illərin əvvəllərində belə bir fakt nəzərə çarpırdı ki, yeni doğulmuş hər 10 uşaqdan biri normal inkişafdan geri qalırdı, allerqik, onkoloji və digər xəstəliklərin sayı demək olar ki, iki dəfə artmışdı.

3. Ekoloji sistemlərdə bərpa olunmayan dəyişikliklər baş verir ki, bunlar da dünyanın bütün sosioekosistemlərinin vəziyyətində əks olunur. Belə ki, 1988-ci ildə ABŞ-da parnik effekti müşahidə olunduqdan sonra həmin ölkə taxıl bitkilərindən hər il aldığı məhsuldarlığın yalnız yarısını götürə bilmişdi (300 mln. t. əvəzinə 190 mln. t.).

1966-cı ildə İngiltərədə iribuynuzlu heyvanlar arasında quduzluq xəstəliyi epidemiya halını almışdı. Bu heyvanların ətinin istifadə edilməsi insan orqanizmi üçün ağır nəticələr vermiş, beyin mərkəzlərinin zədələnməsi səbəbindən ölüm hallarına gətirib çıxarmışdı.

Azərbaycanda insanın aktiv istehsalat fəaliyyəti nəticəsində təkcə flora və faunanın ayrı-ayrı növləri deyil, bütöv təbii komplekslər yox olmuşdur. Yüksək dağlıq meşələrin arealı kiçilmiş, onların sərhədləri isə 100-150 m-ə qədər enmişdir. Hal-hazırda yanacaq ehtiyatlarının çatışmazlığı ilə əlaqədar respublikanın meşələrinə antropogen təsirin daha təhlükəli istiqamətlərindən biri evlərin qızdırılması üçün odun tədarükünün görülməsidir. Bütövlükdə floranın 37 növü yox olmaq təhlükəsi altındadır (2).

4. Ekoloji sistemlərin təhlükəsi əlamətləri meydana çıxır. Bu, təbii resursların kəskin çatışmazlığına səbəb olur və ictimai istehsalatda da özünü göstərir. Su ehtiyatlarının tükənməsi istehsalat sularının qənaətlə işlədilməsi tədbirlərinin hazırlanması öhdəliyini qarşıya qoyur. Respublikanın su anbarına çirklənmiş axar suların ümumi həcminin 40 faizi təmizlənməmiş şəkildə axıdılır (3, s.302).

5. Bütövlükdə ekoloji sistemlərin deqradasiyası, onlarda ekoloji tarazlığın pozulması əlamətləri göz qadağındadır. Sosioekosistemin hətta onda bir hissəsinin pozulması zamanı o dəyişkən olur və istənilən anda ən zəif təsirdən belə tamamilə pozula bilər. Ekoloji böhranın mənbələrinə aşağıdakıları aid etmək olar: təbiətdən qeyri-rasional istifadə, təbii mühit obyektlərinin istifadəsi məsələlərinin həllinə idarəedici yanaşma. Bu, iki əsas səbəblə şərtlənir: təbii mühit, ekoloji sistemlər üçün təhlükə törədən istehsalat vasitələrinin yaradılması və istifadə olunması və ekoloji tarazlığı pozan hərəkətlərin icrası.

Ekoloji böhranın yuxarıda göstərilən iki mənbəyinin əsasını müxtəlif ictimai qrupların maraqları arasındakı ziddiyyət, o cümlədən onların ətraf təbii mühitlə münasibətlərindəki ictimai və şəxsi maraqları arasındakı ziddiyyətlər təşkil edir. Təbiətdən istifadə sahəsində insanların şəxsi tələbatlarının və maraqlarının inkişaf dərəcəsi, onların həyat təcrübəsi, sosial-psixoloji yönümləri, səmtləşmə (orientasiya) istiqamətləri eyni olmadığına görə ictimai və şəxsi baxımdan ekoloji konfliktlər yarana bilər ki, bunlar da sosial münasibətlərin ekolojiləşməsi prosesində müxtəlif formalar ala bilir.

Əhalinin müxtəlif sosial təbəqələrinin maraqları, həmçinin ictimai maraqlar arasındakı ziddiyyətlər sosial-ekoloji konfliktlərin bilavasitə mənbələri və determinantları hesab olunur. Sosial-ekoloji münaqişələrdə ekoloji maraqları üst-üstə düşməyən sosial birliklərin iştirak etməsi səbəbindən onlar arasında gərginləşmiş sosial-ekoloji münasibətlər yaranır və təzahür edir.

Beləliklə, gərginləşmiş sosial-ekoloji münasibətlər münaqişələrin əsasında əmələ gələrək ictimai, yaxud əksər hallarda kollektiv maraqların müxtəlif cür başa düşülməsi nəticəsində inkişaf edir. Düşünülmüş ekoloji fəaliyyət proqramları, məsələn, müxtəlif həyat təcrübəsinə, ekoloji problemlərin mahiyyətinə nüfuz etmənin müxtəlif səviyyələrinə istinad edən bu və ya digər regionun, istehsalat sahələrinin və s. ekoloji inkişafına dair proqramlar bir-birinə zidd xarakterə malik ola bilər. Bununla yanaşı, belə proqramlardan hər biri bütöv sosial qrupların etibarlılığını və səriştəliyini təmin edir. Bu cür hallarda qrup maraqlarının mübarizəsi fikirlər arasındakı mübarizə formasını alır ki, bu da demokratik metodların əsasında aparılmalıdır.

Konfliktin digər ekoloji şəraiti o zaman yaranır ki, ayrıca fərdin ekoloji hərəkətlərində bu və ya digər alternativin seçilməsi sosial birliklərin, yaxud bütövlükdə cəmiyyətin maraqlarına toxunur. Həmçinin nəzərə alınmalıdır ki, bu tip vəziyyətin sferası bazar münasibətlərinə keçid zamanı daha da genişlənir. Belə ki, ovçuluq təsərrüfatları, otlaqlar, kənd təsərrüfatları sahələri və s. şəxsi mülkiyyətə keçir. İnsan və təbiətin qarşılıqlı münasibətlərində mürəkkəb dramatik vəziyyətlər də yarana bilər. Belə ki, bir çox hallarda insan elə fikirləşir ki, o, cəmiyyətin ekoloji maraqlarına uyğun hərəkət edir, lakin əksinə olur. Müasir insandan onun təbiətlə qarşılıqlı münasibətləri sahəsində meydana çıxan ziddiyyətlərin aradan qaldırılması üçün özünün bütün dünya ilə vəhdətini dərk etməsi tələb olunur.

Beləliklə, sosial münasibətlərin ekolojiləşməsi – bir tərəfdən, müxtəlif fəaliyyət növləri ilə əlaqəli olan, ətraf təbii mühit obyektlərinin istifadəsinə birbaşa yaxud dolayısı münasibəti olan sosial qrupların tələbat və maraqlarının ekoloji məzmunla zənginləşməsidir. Digər tərəfdən bu, ayrı-ayrı qrupların ekoloji maraqlarının tənzimlənməsi və sosial nəzarətin təmin olunmasıdır ki, burada əsas məqsəd onlara qarşılıqlı təkmilləşmə, harmoniya, birləşmə və idarəolunma xarakteri vermək, dövlətin ekoloji maraqlarına əsaslanaraq respublikanın təbii mühitinin qorunması və təkrar istehsalına nail olmaqdır.

Sosial-ekoloji münasibətlər ekoloji maraqda ifadə olunur. Ekoloji maraq anlayışı kompleks məna daşıyır və insanla təbiətin qarşılıqlı təsiri baxımından sosial birliklərin maraqlarının məcmusunu təşkil edir.

Sosial-ekoloji münasibətlərdə olduğu kimi bu maraqlar kompleksini təşkil edən müxtəlif komponentlər arasında həm uyğunsuzluqlar, həm də ziddiyyətlər ola bilər.

Ekoloji maraqlar iqtisadi maraqlara nisbətən daha geniş kateqoriyadır: əvvəla, onlar sosial maraqlara aiddir və reallaşması cəmiyyətin mövcudluğunun təbii sağlam şərtlərini təmin edir: ikincisi, onlar təbii mühitin bütövlüyünün qorunmasına istiqamətlənərək ictimai istehsalın həyata keçirilməsi şərtlərini müəyyən edir ki, bu da həm ekoloji, həm də iqtisadi maraqların reallaşması deməkdir.

Əgər ekoloji maraqlar cəmiyyət səviyyəsində müəyyən mənada bir-birinə ziddirsə, istehsalat kollektivi səviyyəsində bu problem özünü daha ciddi şəkildə büruzə verir. Təsərrüfatçılıq maraqları əksər hallarda təbiətin mühafizəsinin maraqları ilə təzad təşkil edir. Bunun bariz nümunəsi kimi Xəzərin acınacaqlı vəziyyətini göstərmək olar (5, s. 273).

Beləliklə, bu və ya digər maraqların reallaşması baxımından sosial-ekoloji inkişaf problemlərinə iki yanaşmanın mövcudluğundan danışmaq olar: ayrıca kollektivin (müəssisənin, idarənin, regionun və s.) bugünkü maraqlarını nəzərə alan iqtisadi, təsərrüfat yanaşması; bütün sosial subyektlərin maraqlarının həyata keçirilməsinin ilkin şərti kimi ümumxalq marağının reallaşmasını, cəmiyyət həyatının bütün tərəflərinin balanslaşdırılmış inkişafı məsələlərini nəzərə alan sosial-ekoloji yanaşma.

Müasir şəraitdə təsərrüfat, iqtisadi yanaşmadan sosial-ekoloji yanaşmaya keçidi axıradək gerçəkləşdirmək hələ mümkün olmamışdır. Və bu keçid müddəti nə qədər uzun çəkərsə, sosial-ekoloji yanaşma xalis ekoloji yanaşmaya çevrilə bilər. Bu halda cəmiyyətin başlıca sosial-iqtisadi vəzifəsi təbii mühitin qorunması və bərpası olacaqdır. Özünün qlobal nəticələrinə əsasən təbiətdən istifadəyə mövcud yanaşmaların davam etdirilməsinin nə qədər faciəli olması axıradək dərk olunmamışdır. Təbiətin düşünülməmiş istismarına əsaslanan prinsiplər üzərində texniki sivilizasiyanın inkişafı təbii komplekslərin öz-özünü bərpaetmə potensialını xeyli dərəcədə aşağı salmışdır.

Ekoloji maraqlar – yalnız ayrı-ayrı fərdlərin maraqları deyil, eyni zamanda onların daşıyıcıları olan müxtəlif sosial birliklərin maraqlarıdır. Deməli, sosial-ekoloji münasibətlər ekoloji tələbatların təmin olunması ilə əlaqədar olaraq meydana çıxır və ekoloji maraqlar şəklində təzahür edir. Bütün bu proses sosial-ekoloji fəaliyyətdə aktuallaşır və reallaşır. Ümumiyyətlə, sosial-ekoloji münasibətlərin spesifikasını belə müəyyənləşdirmək olar: bunlar ekoloji maraqlarda əks olunmuş ekoloji tələbatların təmin olunması baxımından sosial-ekoloji fəaliyyət nəticəsində meydana çıxan münasibətlərdir.

Sosial-ekoloji münasibətlər çoxcəhətli və bütövlü sosial münasibətlər olub, özündə digər münasibətləri də əks etdirir. Onlar bir-birilə qarşılıqlı əlaqədə olan sosial-ekoloji komponentlərin inteqrasiya dərəcəsi ilə səciyyələnirlər (7, s. 52). Sosial-ekoloji münasibətlərin inteqrasiya dərəcəsi digər növ sosial münasibətlərlə müqayisədə daha yüksəkdir ki, bu da onların özünəməxsusluğunu şərtləndirir.

Sosial münasibətlərin ümumi sistemində münasibətlərin ayrı-ayrı növləri müxtəlif əhəmiyyətə malikdir. Bu səbəbdən müxtəlif sosial birliklər arasındakı sosial münasibətlərin tənzimlənmə üsulları da ilk növbədə inteqrativ sosial münasibətin daxilində üstünlük təşkil edən

münasibət növündən asılıdır. Odur кi, sosial-eкoloji münasibətləri təкcə təbliğat vasitəsilə deyil, həm də eкoloji hüququn кöməyilə nizamlamaq lazımdır (6, s. 89).

Sosial-eкoloji münasibətlərin obyeкtini təbiətdən rasional istifadə təşкil edir. Bu, maddiləşdirilmiş təbii sərvətlər və onların təsərrüfat fəaliyyətində istifadə olunma xüsusiyyətindən ibarətdir. Sosial-eкoloji münasibətlərin obyeкtinin ən mühüm cəhətlərindən biri insanın təbii yaşayış mühitinin təкrar istehsalıdır. Sosial-eкoloji münasibətlərin daşıyıcıları və subyeкtləri isə yuxarıda deyildiyi кimi sosial birliкlərdir. Sosial sistem nəzəriyyəsinə müraciət edəк. Parsonsa görə sosial təкamül cəmiyyət, mədəniyyət və təbiət səviyyəsində təzahür edən fəaliyyət sistemidir. O, dörd mühüm yarımsistemə və ya elementlərə maliкdir:

1. təbii obyeкtləri idarə edən uyğunlaşma yarımsistemi;
2. tələbatların təmin edilməsi və təbiətdən istifadə məqsədlərinə nail olunmasından ötrü eкspressiv istehlaкçı sistem;
3. enerjinin tənzimlənməsi, müəyyən edilmiş nümunələrin qorunması və onların məzmununun inteqrasiyasından ibarət latent (gizli) sistem;
4. sistemləri ifadə edən eкspressiv (təsirli) sistem.

Bütün bu sistemlər açıqdır və qarşılıqlı təsirə maliкdir. Onlar, adətən, tarazlıq vəziyyətində olurlar və hər biri pomeostaz prinsipinə əsasən fəaliyyət göstərirlər. Laкin bu tarazlığı saxlamaq üçün кülli miqdarda sosial və eкoloji proseslərin və yarımsistemlərin fəaliyyəti daim davam etdirilməlidir. Çünкi bunlar bütün sosioeкosistemin mövcudluğu üçün zəruri şərtlərdir. Bu sistemin vacib aspeкtləri bioloji və təbii təкrar istehsaldır, sistem isə özünün ehtiyatları hesabına uzunmüddətli mövcudluğun əsas funкsional tələbatlarına cavab verməlidir. Yuxarıda adı çəкilən yarımsistemlərin qarşılıqlı təsiri əsasında sosioeкosistemdə tarazlığın saxlanması sosial birliкlər səviyyəsində sosial qarşılıqlı təsirin obyeкtiv nəticəsidir.

Deməli, sosioeкosistemin məzmununa daxildir: təbii mühit elementlərinin məcmusu; insanın yaratdığı məhsuldar qüvvələr və ictimai münasibətlər; insanın təbiətdən bilavasitə yaxud dəyişdirilmiş şəкildə istifadəsi.

Bu gün insan və təbiət arasındaкı qarşılıqlı münasibətlər problemi insan tələbatları, məqsədləri və təsisatları ilə bağlı onun həyat fəaliyyətinin sosiomədəni контекstində nəzərdən кeçirilir. Alimlər tərəfindən təкlif olunmuş belə raкurs eкoloji böhrandan çıxış yollarının, insan tələbatlarının dəyişdirilməsi və yüкsəldilməsi yollarında eкoloji problemlərin müsbət həlli yollarının tapılması cəhdləri ilə bağlıdır.

Sosioeкosistem ziddiyyətlidir. Onun sosial və təbii yarımsistemlər arasındaкı əsas ziddiyyəti məhsuldar qüvvələrlə istehsal münasibətləri arasındaкı ziddiyyətlərlə müəyyən əlaqədədir.

Cəmiyyətlə təbiət arasındaкı ziddiyyətin кöкləri sosial-eкoloji qarşılıqlı təsirlərin həyata кeçirildiyi xüsusi formalardadır. Bu formalar, məsələn, təsərrüfat mexanizmi, elmin, təhsilin, idraкın inкişaf səviyyəsi və s. hal-hazırda formalaşmış ictimai tələbatların məcmusu ilə təzad təşкil edir. Eкoloji tələbatlar onların tərкib elementini təşкil edir. Eкoloji tələbatlar ictimai orqanizmin və onun ayrı-ayrı elementlərinin həyat fəaliyyətinin əlverişli və daim yaxşılaşan şəraitinə, o cümlədən bu şəraitlərin yaradılmasını və mühafizə

edilməsini təmin edən vasitələrə olan tələbatlardır.

Parsonsa görə təkamül tarazlığı təmin edir. Onun bu yanaşması ənənəvi marksist baxışlarından qəti surətdə fərqlənir. Marksizmə görə, sosial fəaliyyət inkişaf etməkdə olan məhsuldar qüvvələrin maddi bazası üzərində yaranmış təbiətin kortəbii qüvvələrinə cəmiyyətin yiyələnməsi dərəcəsi kimi nəzərdən keçirilir. Bu isə insanın tarixi prosesdə hökmranlığının artmasında, istehsalın fasiləsiz inkişafında və rifahın yüksəlməsində ifadə olunur. Belə fəaliyyət sosial prosesin dəyişməsi faktorudur.

Tədqiq etdiyimiz problemin müxtəlif aspektlərinə aidiyyatı olan proseslərin və sistemlərin mahiyyətinə hər iki yanaşma istər mənfi, çatışmayan tərəflərə, istərsə də müsbət, pozitiv cəhətlərə malikdir.

Amerika sosioloqları M.Levi və T.Parsonsun terminologiyasından istifadə etməklə sosial-ekoloji davranışı sosial subyektlərin həm obyektiv, həm də subyektiv ekoloji davranışı kimi təsəvvür etmək olar.

Ətraf təbii mühitin sosial qarşılıqlı təsiri, təbiətlə qarşılıqlı münasibətdə yaranmış sosial konfliktlər obyektiv ekoloji davranışın sosial elementləri hesab olunur. Sərvətlər, normalar, hisslər, motivlər və istiqamətlənmələr (oriyentasiyalar) isə subyektiv münasibətlərə aid edilir (4).

Sosial-ekoloji münasibətlər sahəsindəki konfliktlər davamlı, təkrarolunan və ümumilik xarakteri alarsa, onlar müəyyən ictimai vəziyyətlərdə sosial-ekoloji böhrana çevrilə bilərlər.

Sosial-ekoloji böhran – sosial subyektlərin qarşılıqlı münasibətləri sferasındakı ekoloji ziddiyyətlərin kəskin formada təzahürü olub, cəmiyyətin dəyər-normativ sistemindəki pozuntularla əlaqədardır. Ümumiyyətlə, ekoloji təzadlar sosial-ekoloji böhranın obyektiv əsasını təşkil edir, onun subyektiv tərkibinə – sosial-ekoloji vəziyyətin son dərəcə ağır olduğunun dərk edilməsi, çıxılmaz vəziyyətin hiss olunması (məsələn, Çernobıl faciəsi), sonrakı optimal sosial-ekoloji qarşılıqlı fəaliyyətin mümkünsüzlüyü aiddir (11, s. 71).

Sosial-ekoloji qarşılıqlı təsir sosial münasibətlərin ekolojiləşməsinin əsası olub, özündə müxtəlif sferaların, sosial subyektlərin həyatındakı hadisələrin və proseslərin qarşılıqlı təsirini əks etdirir, ekoloji fəaliyyət vasitəsilə həyata keçirilir. O, bu fəaliyyət prosesində həm təbii mühitin ayrı-ayrı obyektləri arasında, həm də hər hansı təbiət obyektinin daxilində, onun elementləri arasında mövcuddur. Müvafiq olaraq daxili və xarici sosial-ekoloji qarşılıqlı təsir ayırd edilir.

Sosial-ekoloji qarşılıqlı təsir obyektiv və subyektiv tərəflərə malikdir. Onun obyektiv tərəfini sosial subyektlərdən asılı olmayan, lakin onların qarşılıqlı münasibətlərinin məzmun və xarakterini vasitələndirən və nəzarət edən əlaqələr təşkil edir. Subyektiv tərəf sosial subyektlərin bir-birinə şüurlu münasibətlərindən ibarətdir ki, bu da qarşılıqlı müvafiq davranışa əsaslanır. Sosial-ekoloji qarşılıqlı təsirin mexanizminə bu və ya digər sosial-ekoloji hərəkətləri yerinə yetirən subyektləri, bu fəaliyyət nəticəsində ekosistemlərdə və bütövlükdə sosioekosistemlərdə əmələ gələn dəyişiklikləri və nəhayət, bu dəyişikliklərin digər subyektlərə, onların əks reaksiyasına təsirini aid edirlər. Sosial-ekoloji qarşılıqlı təsirlər adətən, bir-birilə qarşılıqlı əlaqədə olan iki məqama gətirib çıxarır: sosial münasibətlərin ekolojiləşməsinə və ekoloji münasibətlərin sosiallaşmasına.

Qeyd etməliyik ki, subyektlərlə təbiət arasındakı münasibətlər

subyektiv baxımdan sosial, obyektiv baxımdan ekolojidir. İnsan və təbiət arasındakı qarşılıqlı təsir sisteminin bu iki komponenti arasındakı nisbət onların sosial-ekoloji davranışının xarakterini müəyyən edir. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, sosial-ekoloji davranış subyektlərin fəaliyyətində sosial xarakter almaqla ekoloji motiv və stimulların qarşılıqlı təsiri prosesində formalaşır.

Ekoloji fəaliyyətin motivləri dedikdə, sosial-ekoloji hərəkətin daxili sövqedicləri başa düşülür ki, bunlar da subyektlərin strukturunda onların obyektiv sosial, ekoloji tələbat və maraqlarını əks etdirir. Onlar sosial-ekoloji fəaliyyətin məqsədlərinin subyektiv tərəfindən təkmilləşdirilməsini şərtləndirir. Ekoloji maraqlardan davranışın məqsədinə keçid mərhələsində daxili sövqedicilər və sosial-ekoloji fəaliyyətlə yanaşı xarici sövqedicilər – stimullar da mövcuddur.

Sosial-ekoloji fəaliyyətin xarici təzahürü kimi sosial-ekoloji davranışda subyektlərin konkret mövqeyi üzə çıxır. Bu, sosial əhəmiyyətli ekoloji obyektlərə münasibətdə təbiətdən istifadə üzrə fəaliyyətin real, konkret hərəkətlərə çevrilməsi formasıdır. O özündə hərəkətlərin xarici müşahidə olunma sistemini ifadə edir ki, burada da subyektlərin daxili niyyətləri reallaşır.

Konkret şəraitdə sosial qrupun müəyyən ekoloji fəaliyyətə sosial meylliyi bu və ya digər tələbatlarını ödəməyə çalışan sosial-ekoloji fəaliyyət subyektinin təbii mühit stimullarına cavab vermək formasıdır. Bir çox hallarda bu, davranışın səbəblərini, məqsədini və onun saxlanma vasitələrini müəyyən edir.

Son nəticədə sosial-ekoloji davranış mövcud olan strukturda subyektin obyektiv mövqeyi ilə, bu mövqe ilə şərtləşdirilmiş tələbatlar və maraqlarla, o cümlədən digər subyektlərlə qarşılıqlı təsirilə determinasiya olunduğu üçün o özünə sosial-ekoloji münasibətlərin elementlərini də daxil edir. Sosioloji təhlil zamanı fərdi ekoloji davranışdan sosial-ekoloji davranışa keçmək o halda mümkündür ki, fərdi davranışda sosial-ekoloji münasibətlərin elementləri üzə çıxarılsın, müəyyən sayda fərdi maraq və məqsədlər, həmçinin sosial-ekoloji qarşılıqlı təsir prosesində əmələ gəlmiş maraq və məqsədlər tədqiq edilsin. Sosial münasibətlərin ekolojiləşməsi və ekoloji münasibətlərin sosiallaşması prosesləri bir-birilə qarşılıqlı əlaqədardır və onlar eyni zamanda fəaliyyətdə olan proseslərdir.

Sosial-ekoloji münasibətlərin mexanizmi ondan ibarətdir ki, ətraf təbii mühitin stimulları olan xarici faktorlar fərdi şüurda olduğu kimi qrup şüurunda da əks olunaraq, burada öz məzmununu dəyişir, müəyyən fəaliyyət motivləri toplusuna və ekoloji sərvətlərə olan münasibətlərə malik sosial-ekoloji təsisetmələrə və oriyentasiyalara (səmtləşdiricilərə) çevrilirlər. Bu təsisetmələr, oriyentasiyalar və motivlər sosial subyektlərin hərəkətində əks olunaraq ekoloji fəaliyyətin müəyyən obrazını yaradır və müvafiq olaraq bu fəaliyyətin əldə edilmiş nəticələrinin xarakterini müəyyənləşdirir. Beləliklə, sosial münasibətlərin ekolojiləşməsi sxematik olaraq iki mərhələdən keçir: qrup şüurunun ekolojiləşməsi və qrup davranışının, qrup fəaliyyətinin ekolojiləşməsi.

## ƏDƏBİYYAT

1. Allahyarova T. Ekoloji mədəniyyət və ictimai tərəqqi. Bakı, 1999, s. 50.

2. Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsinin vəziyyəti. Bakı, 1997.
3. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2005. s. 302.
4. Ekologiya. Fəlsəfə. Mədəniyyət. 1 - 40 buraxılışlar. Bakı, 1991-2006-cı illər.
5. Məmmədov Q.İ., Xəlilov M.Y. Ekoloqların məlumat kitabı. Bakı, 2003, s. 273.
6. Mikayılov H.K., Nuriyev C.Q., Nuriyeva K.Q. Ekologiya hüququ. Bakı, 2000, s. 89.
7. Şükürov A.M. Qlobalistika və ekoloji fəlsəfə. Bakı, 2000, s. 52.
8. Лапина М.В. Проблема социальных отношений в обществознании. Философские науки. Москва, 1984, № 5.
9. Плетников Ю.К. О природе социальной формы движения. Москва, 1986.
10. Реймерс Н.Ф. Новая тенденция в развитии современной культуры. Вестник, №12, Москва, 1993. с. 91.
11. Сорокин П. Кризис нашего времени. Москва, 1992, с. 71.

## СТРУКТУРА И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ СОЦИАЛЬНО-ЭКОЛОГИЧЕСКИХ ОТНОШЕНИЙ

**А.Н.МАМЕДОВА**

**РЕЗЮМЕ**

В статье рассматриваются социально-экологические отношения, их природа, структура и характерные особенности. Установлено, что экологизация социальных отношений – процесс сложный, противоречивый, сопровождается, если нарушается экологическая хартия страны, возникновением экологической напряженности в отношениях социальных групп и серьезными негативными последствиями, затрагивающими коренные интересы страны и ее граждан.